


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 26 (24.163)

*10 fevral 2023-cü il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvana səfər edib



Prezident İlham Əliyevin tapşırığı ilə fevralın 9-da Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvana səfər edib.

Səfər Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarətlə başlayıb.

Qonaqlar səfər çərçivəsində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədov və digər rəsmi şəxslərlə görüşüblər.

Qeyd olunub ki, səfərin məqsədi muxtar respublikada meliorasiya və irriqasiya sahəsində görülmüş işləri, sututarlarında yığılan suyun vəziyyətini, suvarma və içməli suya olan tələbatı yerindəcə öyrənib təhlil etmək, içməli və suvarma su təminatının daha da yaxşılaşdırılmasına nail olmaqdır. Muxtar respublikanın təbii sərvətləri, su ehtiyatları, kənd təsərrüfatı, ekoloji potensialı barədə təhlil aparmaq, bu vacib sahələrin inkişafını yeni dövrün tələblərinə uyğunlaşdırmaq, iqtisadi səmərəliliyini yüksəltmək də prioritet vəzifələr sırasındadır.

Görüşdə meliorasiya və irriqasiya sahəsində mövcud vəziyyət dəyərləndirilib, görüləcək işlər geniş müzakirə edilib.

Bildirilib ki, mütəxəssislər Bənəniyar Su Anbarı və kanalına, Nehrəm Su Anbarına, Batabat yaylasına (qar ehtiyatları üçün), Heydər Əliyev Su Anbarına, Şahbuz Şəhər Təmizləyici Qurğular Kompleksinə, Uzunoba Su Anbarına, Naxçıvan Şəhər Su Təmizləyici Qurğular Kompleksinə, Qaraçuq kanalına, Araz Su Anbarı üzərində "Qaraçuq-1" panton nasos stansiyasına, Arpaçay Su Anbarına, Arpaçay sağ sahil kanalına baxış keçirirlər.

Qeyd edək ki, nümayəndə heyətinə ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, kənd təsərrüfatı nazirinin müavini Sarvan Cəfərov, Fövqəladə Hallar Nazirliyinin Su Ehtiyatları Dövlət Agentliyinin rəisi Hikmət Məmmədov, Milli Hidrometeorologiya Xidmətinin rəis müavini Rafiq Verdiyev, "Azmelsutəsərrüfat" Açıq Səhmdar Cəmiyyətinin sədri Zaur Mikayılov və digər rəsmi şəxslər daxildir.

## Ordubad rayonunun Xanağa kəndində məktəb, yol, kənd və xidmət mərkəzləri istifadəyə verilib

Fevralın 9-da – Naxçıvan Muxtar Respublikasının yaranmasının 99-cu ildönümündə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Ordubad rayonunun Xanağa kəndində aparılan kompleks quruculuq işləri ilə tanış olub.

Əvvəlcə yenidənqurmadan sonra istifadəyə verilən Xanağa kənd tam orta məktəbi ilə tanışlıq zamanı məlumat verilib ki, ikimərtəbəli, 288 şagird yerlik məktəbdə 16 sinif otağı, fizika, kimya və biologiya laboratoriyaları, hərbi kabinə, STEAM kabinəsi, kitabxana, idman zalı, şahmat sinfi, kompüter, müəllimlər və digər otaqlar yerləşir. Burada internetə çıxışı olan 21 kompüter və 4 elektron lövhə quraşdırılıb. Binanın həyətində açıq idman qurğuları qoyulub, bufet və qazanxana tikilib, abadlıq və yaşıllaşdırma işləri görülüb.

Məktəbin pedaqoji kollektivi ilə görüşdən sonra Xanağa kənd yolunda yaradılan şəraitlə tanışlıq olub. Bildirilib ki, ümumi uzunluğu 5,2 kilometr olan kənd yoluna asfalt örtük salınıb, 88 boru su keçidi qoyulub, 1 yeni körpü salınıb, 1 körpü əsaslı təmir edilib, 1470 metr beton su kanalı çəkilib.

Kənd və xidmət mərkəzlərində yaradılan şərait barədə məlumat verilib ki, 2 mərtəbəli kənd mərkəzində inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, rabitə evi, polis sahə məntəqəsi, kitabxana, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, arxiv, klub, 38 yerlik zal, qazanxana və digər otaqlar yerləşir. Kənd mərkəzində yerləşən feldşer-mama məntəqəsində məntəqə müdiri, mama və manipulyasiya otaqları vardır. Xidmət mərkəzində isə ərzaq və təsərrüfat malları mağazaları, ət satışı yeri, bərbər, qadın gözəllik salonu və 1 anbar yerləşir.

**"Şərq qapısı"**

## Rayon sakinlərinin müraciətləri dinlənilib



*Fevralın 7-də Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Nicat Babayev Sədərək rayonunda sakinlərlə görüşüb, onların müraciətləri dinlənilib.*

Görüşdə, ümumilikdə, 102 rayon sakininin müraciətinə baxılıb. Yerində həll edilməsi mümkün olan müraciətlər təmin edilib. Belə ki, 3 nəfərin işlə təmin edilməsi, 37 nəfərin özünüməşğulluq proqramına, 3 nəfərin isə peşə hazırlığı kurslarına cəlb olunması ilə bağlı müvafiq işlərə başlanılıb. Bununla yanaşı, 2 nəfər əlilliyi olan şəxsə birdəfəlik maddi yardım verilməsi, 14 nəfərə isə ünvanlı dövlət sosial yardımı təyin edilməsi məqsədilə müvafiq sənədlərin Əhalinin Sosial Müdafiəsi Mərkəzinə təqdim etmələri izah olunub. Digər müraciətlərin isə qanunamüvafiq araşdırılmasına dair aidiyyəti üzrə tapşırıqlar verilib. Nazirliyin səlahiyyətləri xaricində olan müraciətlərə isə aidiyyəti qurumlar tərəfindən baxılması üçün yönləndirilib.

*Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin rəisi Müslüm Cabbarzadə və Sədərək Rayon İcra Hakimiyyətinin başçısı Mahirə Adnayeva Sədərək rayon sakinləri ilə görüşüblər.*



Rayon İcra Hakimiyyətində təşkil olunan qəbulda vətəndaşlar bir sıra məsələlərlə bağlı müraciət ediblər. Görüşdə vətəndaşların pay torpaq sahələrinin istifadə vəziyyətində yaranmış çətinliklərin aradan qaldırılması, həyətyanı sahələrin sənədlərində dəqiqləşdirilmələrin aparılması və digər məsələlərə baxılıb, sakinlərin fikirləri dinlənilib.

Ümumilikdə, 19 rayon sakininin müraciətinə qanunauyğun surətdə baxılıb. 8 vətəndaşın müraciəti yerində həllini tapıb. Yerində həll olunması mümkün olmayan məsələlərlə bağlı müraciət edən 3 rayon sakininə müvafiq sənədləri təqdim etməklə müraciət etməsi izah olunub. 8 vətəndaşa isə qanunvericiliyin tələbləri izah olunaraq aidiyyəti qurumlara müraciət etmələri tövsiyə olunub.

**Xəbərlər şöbəsi**

## Mühəndis-proqramçılar üçün Beynəlxalq Təhlükəsiz İnternet Günü münasibətilə onlayn təlim keçirilib



Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası tərəfindən Beynəlxalq Təhlükəsiz İnternet Günü münasibətilə keçirilən onlayn təlimdə Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mühəndis-proqramçıları da iştirak edib. Təlimdə Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası İdarə Heyətinin sədri Elvin Balacanovun "Sosial mediada dezinformasiyaya qarşı mübarizə", Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət xidmətinin əməkdaşı Günay Əbdiyevanın "Təhlükəsizliyin bilik və davranışların qədər güclüdür" və Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Elektron Təhlükəsizlik Xidmətinin əməkdaşı Aysel Hadiyevanın isə "Kiberdələduzluq və növləri" mövzularında çıxışları dinlənilib. Həmçinin məlumatların qorunmasında istifadəçilərin mümkün kiberhücumlardan mühafizə olunmaları barədə ətraflı məlumatlar verilib, o cümlədən iştirakçıların diqqətinə çatdırılıb ki, kiberdələduzluq vasitəsilə istifadəçiləri aldadıb müxtəlif yollarla eyni olan, amma saxta olan hansısa sayta və ya digər resursa yönəltməklə onların fərdi məlumatları oğurlana bilər. Burada istifadəçilərin şəxsi məlumatları, İD nömrələri, elektron poçt ünvanları və sair məlumatları ola bilər. Bu təhlükələrdən qorunmaq üçün şəxsi məlumatlarını kənar şəxslərə ötürməmələri, yönləndirilən hər hansı saytın və həmin saytda tələb olunan kredit kartı, bank hesabı və bu kimi məxfi məlumatları yazmamaları, tələb olunan sorğulara şübhə ilə yanaşmaları və etibarlı mənbələrdən istifadə etmələri tövsiyə olunur.

Bu səbəbdən informasiya təhlükəsizliyi və ona qarşı yönəlmiş hücumların riskini azaltmaq üçün istifadəçilər təhlükəsizlik qaydalarını yaxşı bilməli, daim informasiya təhlükəsizliyi mövzusunda maariflənməlidirlər.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## Yanvar ayında 665 daşınmaz əmlak obyekti qeydiyyata alınıb

Torpaq və daşınmaz əmlak obyektləri üzərində mülkiyyət hüquqlarının qeydiyyatının aparılması, onların müdafiəsi sahəsində işlərin daha səmərəli təşkili, həmçinin torpaqlardan təyinatına uyğun istifadə edilməsinə nəzarətin mütəşəkkil həyata keçirilməsi yanvar ayında da Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti tərəfindən diqqətdə saxlanılıb, vətəndaş müraciətlərinin operativ cavablandırılması təmin edilib.

Xidmət tərəfindən ötən ay 665 daşınmaz əmlak obyekti üzərində hüquqlar dövlət qeydiyyatına alınıb, 494 texniki sənəd hazırlanıb, ilkin qeydiyyat, bölünmə və birləşmə nəticəsində yeni yaranan 34 daşınmaz əmlak obyektinə ünvan verilib, 69 torpaq sahəsinin plan və ölçüsünə dair dövlət kadastr kitablarında qeyd aparılıb, məhdudiyyət və yüklülüyə dair 436 arayış verilib. Ay ərzində xidmətin fəaliyyət istiqamətləri üzrə təqdim etdiyi elektron xidmətlərə hüquqi və fiziki şəxslər tərəfindən daxil olan 82 müraciət qəbul edilərək icra olunması üçün aidiyyəti üzrə yönəldilib.

Cari ilin ilk ayında kənd təsərrüfatı təyinatlı torpaq sahələri və onların mülkiyyətçiləri haqqında əvvəllər yaranan hüquqlara dair 1004 məlumat daşınmaz əmlakın elektron qeydiyyat sisteminə daxil edilib. 4 ailə təsərrüfatına məxsus həyətyanı təsərrüfat binaları sənədləşdirilib, təsərrüfat fəaliyyəti ilə əlaqədar 3 ailə təsərrüfatının icarəsinə verilən torpaq sahələri üzərində hüquqlar dövlət qeydiyyatına alınıb.

2022-ci ilin yekunlarının müzakirəsi və cari ildə qarşıda duran vəzifələrlə əlaqədar xidmətdə keçirilən kollegiya iclasında muxtar respublikanın torpaq fondundan təyinatı üzrə səmərəli istifadə edilməsinə nəzarətin daha da gücləndirilməsi ilə bağlı verilən tapşırıqlara uyğun olaraq tədbirlər görülüb, şəhər və rayon idarələrində rəqəmsal xəritəyə ümumi nəzarət həyata keçirilib.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mətbuat xidməti***

## Miqrasiya proseslərinə nəzarət gücləndirilir

Naxçıvan Muxtar Respublikasında miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi, qanunsuz miqrasiyanın qarşısının alınması məqsədilə Dövlət Miqrasiya Xidməti tərəfindən həyata keçirilən tədbirlər yanvar ayında da davam etdirilib. Xidmət tərəfindən muxtar respublika ərazisində qanunsuz yaşayan və qeydiyyatsız olan, ölkədə olma və ya yaşama müddəti qurtardıqdan sonra getməkdən boyun qaçıran, habelə müvəqqəti yaşamaq üçün icazə vəsiqəsini itirən 30 əcnəbi aşkarlanaraq Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq barələrində müvafiq tədbirlər görülüb.

Ötən ay Dövlət Miqrasiya Xidmətinə, ümumilikdə, 475 müraciət daxil olmuşdur. Daxil olan müraciətlərdən 291-i əcnəbilərə Azərbaycan Respublikasında müvəqqəti və daimi yaşamaq üçün icazənin verilməsi, əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazəsinin verilməsi, eləcə də vətəndaşlıq məsələləri ilə bağlı olmuşdur. Müraciətlərin hər biri ayrı-ayrılıqda Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə əsasən araşdırılmış, müvafiq qərarlar qəbul edilmişdir.

Ötən dövrdə olduğu yer üzrə qeydiyyatla bağlı 184 müraciət qeydə alınaraq icrası təmin olunmuş, həmin müraciətlərdən 31-i elektron poçt üzərindən qəbul edilmişdir.

Dövlət Miqrasiya Xidməti tərəfindən fəaliyyət istiqamətlərinə uyğun olaraq maarifləndirmə tədbirləri aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***



*Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci il fevral ayının 10-da Şərq aləmində ilk dəfə olaraq Azərbaycanda ölüm cəzasının ləğvi ölkəmizin dünyəvi, demokratik, hüquqi dövlət quruculuğu yolu ilə inamla irəlilədiyini bir daha sübut edir. Yaşamaq hüququ insanın ayrılmaz təbii hüququdur, yəni hər kəs bu hüquqa malikdir. Bu müddəa insan hüquqları haqqında bütün beynəlxalq aktlarda, o cümlədən bütün dünya dövlətlərinin əsas qanunlarında, konstitusiyalarında öz əksini tapmışdır. BMT Baş Məclisinin 10 dekabr 1948-ci il tarixli Qətnaməsi ilə qəbul və bəyan edilən İnsan Hüquqları Bəyannaməsinin 3-cü maddəsində qeyd olunur: "Hər bir şəxsin yaşamaq, azadlıq və şəxsi toxunulmazlıq hüququ var".*

### 2023-cü il "Heydər Əliyev İli"dir

# Humanizmin Heydər Əliyev zirvəsi

Avropa İnsan Hüquqları Konvensiyasının 2-ci maddəsində isə göstərilir ki, hər kəsin yaşamaq hüququ qanunla qorunur. Heç kəs qanunla ölüm hökmü nəzərdə tutulmuş cinayət törətməyə görə, məhkəmə tərəfindən çıxarılmış belə hökmün icrasından başqa heç bir halda həyatdan məhrum edilə bilməz.

Bəşəri dəyərlər əsasında hazırlanaraq ümumxalq səsverməsi (referendum) ilə qəbul edilən Azərbaycan Respublikasının ilk milli Konstitusiyasında insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təminatı dövlətin ali məqsədi olduğu təsbit edilmişdir. Konstitusiyanın 27-ci maddəsində qeyd olunur ki, hər kəsin yaşamaq hüququ vardır. Dövlətə silahlı basqın zamanı düşmən əsgərlərinin öldürülməsi, məhkəmənin qanuni qüvvəyə minmiş hökmünə əsasən ölüm cəzasının tətbiqi və qanunla nəzərdə tutulmuş digər hallar istisna olmaqla hər bir şəxsin yaşamaq hüququ toxunulmazdır. Müstəsna cəza tədbiri kimi ölüm cəzası tam ləğv edilənədək yalnız dövlətə, insan həyatına və sağlamlığına qarşı, xüsusilə ağır cinayətlərə görə qanunla müəyyən edilə bilər. Qanunla nəzərdə tutulmuş zəruri müdafiə, son zərurət, cinayətkarın yaxalanması və tutulması, həbsdə olanın həbs yerindən qaçmasının qarşısının alınması, dövlətə qarşı qiyamın yatırılması və ya dövlət çevrilişinin qarşısının alınması, ölkəyə silahlı basqın edilməsi halları istisna olmaqla insana qarşı silah işlədilməsinə yol verilmir.

İnsan həyatının ali sosial dəyəri onun yaratdığı dövlət tərəfindən təmin edilir. Yaşamaq hüququ, ilk növbədə, təcavüzkar müharibələri və münaqişələri istisna edən sülhsevər xarici siyasətin dövlət tərəfindən həyata keçirilməsini nəzərdə tutur. Yaşamaq hüququnun Konstitusiya təminatlarından biri ölüm cəzası ilə bağlıdır. Ölüm cəzası, demək olar ki, əbədi bir mövzudur. Tarixi mənbələrə görə isə ölüm cəzasının ləğvi ilə bağlı ilk müzakirələr eradan əvvəl 427-ci ilə təsadüf edir ki, həmin ildə Afina Məclisində bu məsələ müzakirə olunub.

Ulu Öndər Heydər Əliyev ölkəmizdə siyasi hakimiyyətə qayıtdıqdan sonra insan hüquq və azadlıqlarının təmin edilməsi respublikamızda gedən böyük demokratik proseslərin tərkib hissəsi kimi dövlətin diqqət mərkəzində saxladığı prioritet məsələlərdən biri oldu. Ümummilli Liderin həyata keçirdiyi müdrik dövlətçilik siyasəti nəticəsində insan hüquqlarının müdafiə edilməsi gündəlik həyatımızda öz real təminatını almaqla yanaşı, həm də normativ-hüquqi sənədlərdə öz əksini tapdı. Görkəmli dövlət xadimi insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasını ali vəzifə kimi qarşıya qoydu. Bu baxımdan 1993-cü ildən ölüm hökmü cəzası üzərində moratorium qoyulmasını, 1998-ci ildə isə bu cəzanın tamamilə ləğv edilməsini xüsusi qeyd etmək lazımdır.

Ölüm cəzasının ləğv edilməsi insan və vətəndaş hüquq və azadlıqlarının qorunması ilə yanaşı, həm də nüfuzlu beynəlxalq təşkilatların, əsasən də, Avropa Şurasının bu quruma üzv dövlətlər qarşısında müəyyənləşdirdiyi əsas tələblərdən idi. Ölüm hökmünün ləğvi məsələsi müstəqil Azərbaycanın Konstitusiyasında da təsbit olunmuşdur. Belə ki, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanaraq 1995-ci il noyabrın 12-də qəbul edilən müstəqil Azərbaycanın ilk milli Konstitusiyasında demokratik, hüquqi dövlət quruculuğu və insan haqlarının qorunması dövlətimizin ali, strateji məqsədi kimi önə çıxarılıb.

Konstitusiyanın maddələrinin üçdəbir hissəsi məhz insan hüquq və azadlıqlarını özündə ehtiva edir. Ali qanunumuzun 54-cü maddəsində insan hüquq və azadlıqlarının qorunması öz əksini tapıb. İnsan hüquq və azadlıqlarının müdafiəsi, Azərbaycan vətəndaşlarının şərəf və ləyaqətinin qorunması, demokratik prinsiplərin daha geniş şəkildə tətbiqi, əhalinin həyat səviyyəsinin davamlı yaxşılaşdırılması, onların öz fikirlərini sərbəst ifadə etmələri üçün reallaşdırılan tədbirlər, mitinq, küçə yürüşləri və digər aksiyaların keçirilməsi üçün yaradılan sərbəstlik ölkəmizin beynəlxalq aləmə daha sürətlə inteqrasiyasına böyük zəmin yaradıb.

Ulu Öndər Heydər Əiyev 1995-ci ildə amnistiya institutunu da təsis etdi. Azərbaycan Respublikası Prezidenti yanında Əfv Komissiyası yaradıldı. Cəmiyyətin ən müxtəlif təbəqələrini əhatə edən əfv sərəncamlarının və amnistiya haqqında fərmanların verilməsi qanunların aliliyi prinsipini tərəddüdsüz qəbul edən vətəndaşların reabilitasiyasına fundamental töhfələr verdi. Belə ki, 1995-2003-cü illərdə 7 amnistiya aktı və 32 əfv fərmanı imzalanıb. Bu amnistiya aktı 77 mindən çox insana şamil edilib.

Ölkəmizdə ölüm cəzası 1998-ci il fevralın 10-da ləğv olunub. Azərbaycanda Avropa Şurasına üzv olmadan öncə ölüm hökmünü ləğv edərək barələrində belə hökm çıxarılmış insanların cəzası ömürlük həbs cəzası ilə əvəzlənib. Halbuki ABŞ-da və Avropa Şurasının üzvü olan bir sıra dövlətlərdə hələ də ölüm cəzası qüvvədə qalır.

Ümummilli Lider Heydər Əliyevin Azərbaycan Respublikasında ölüm hökmünün ləğv edilməsi ilə bağlı Azərbaycan Respublikasının Milli Məclisinə tarixi müraciəti isə humanizmin Heydər Əliyev zirvəsidir. Müraciətdə qeyd olunur ki, Azərbaycan Respublikasının Konstitusiyası insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsini dövlətimizin ali məqsədi kimi bəyan edib. Bu məqsədə nail olmaq üçün dövlətimizdə ümumbəşəri dəyərlərə və inkişaf etmiş ölkələrin təcrübəsinə əsaslanan qanunvericilik bazası yaradılır. Hazırda bu siyasətin ardıcıl və məqsədyönlü davam etdirilməsi üçün zəruri tədbirlər həyata keçirilir. Məramı dünyəvi, hüquqi dövlət qurmaq olan Azərbaycan Respublikasında hər bir insanın təbii və ayrılmaz hüququ olan yaşamaq hüququna əsaslı təminatlar verilib, insanın həyatdan məhrum edilməsi yolverilməz hesab olunub. Konstitusiyada ölüm cəzası tam ləğv edilənədək yalnız dövlətə, insan həyatına və sağlamlığına qarşı, xüsusilə ağır cinayətlərə görə müstəsna cəza tədbiri kimi göstərilib və daimi cəza növü kimi nəzərdə tutulmayıb. İnsan ləyaqətinə, bütövlükdə, insan hüquqları ideyasına zidd olan bu cəzanın tətbiqi, hansı dəlillərlə əsaslandırılmasından asılı olmayaraq, demokratik cəmiyyətdə qeyri-insani və amansız tədbir kimi qiymətləndirilir.

Şərq aləmində ilk dəfə olaraq Azərbaycanda ölüm cəzasının ləğvinin ölkəmizin dünyəvi, demokratik, hüquqi dövlət quruculuğu yolu ilə inamla irəlilədiyini bir daha sübut etdiyini vurğulayan Ulu Öndər bütün bunları Azərbaycan xalqının çoxəsrlik ənənələrindən irəli gələn, ən yüksək dəyər olan insan həyatının qorunmasına təminat verən, cəmiyyətimizi insanilәşdirən, insan ləyaqətinə hörmət və ehtiramı bütünlükdə ölkəmizdə demokratiyanın inkişafını nümayiş etdirən, xalqımızda nikbin gələcəyə inam yaradan ədalət, azadlıq, humanizm və insanpərvərlik kimi yüksək ideallara sadiq qalaraq bu tarixi bəyanatı verib. Ölüm cəzasının ləğvi məhz bu siyasətin məntiqi nəticəsidir.

Azərbaycanda ölüm cəzasının ləğvi bu cəzaya məhkum olunmuşların vəziyyətini yüngülləşdirib və humanist addım kimi qiymətləndirilməlidir. Ölüm cəzasının ləğvi ölkəmizin Avropa məkanına inteqrasiyası baxımından cox əhəmiyyətli bir addımdır. Ölüm cəzasından fərqli olaraq ömürlük azadlıqdan məhrumetmə barəsində bu cəza təyin olunmuş şəxslərin gələcəkdə azad edilmə imkanlarını da nəzərdə tutmaqla onların islah edilməsini stimullaşdırır.

Ölüm cəzasının ləğvi tarixi hadisə olmaqla bərabər, cinayət-hüquq siyasətinin humanistləşdirilməsi sahəsində atılan qətiyyətli addımdır.

Görkəmli dövlət xadimi Heydər Əliyevin siyasi xəttini uğurla davam etdirən ölkə başçısı cənab İlham Əliyevin insan hüquq və azadlıqlarının qorunması istiqamətində həyata keçirdiyi tədbirlər beynəlxalq aləmdə də yüksək dəyərləndirilir. İmzalanan əfv sərəncamları ölkəmizdə insan hüquq və azadlıqlarının dövlətin diqqət mərkəzində saxladığı prioritet sahələrdən birinə çevrilib. Səhvindən səmimi peşmançılıq hissləri keçirən, dövlət başçısına bağışlanması ilə bağlı müraciət edən və ictimai asayişə, bütövlükdə, təhlükə təşkil etməyən məhkumların bağışlanması insanların dövlət başçısına olan inamını daha da artırıb.

*Ümummilli Lider Heydər Əliyev ölkəmizdə qanunun aliliyini hər şeydən üstün tutaraq qanunlarımıza əməl etməyin hər bir kəsin ən ümdə borcu olduğunu bildirirdi:* ***"Hər bir şəxs Konstitusiya və qanunlara dönmədən əməl etməli, ondan irəli gələn dövlət və cəmiyyət qarşısında vəzifələri layiqincə yerinə yetirməli, ölkəmizdə gedən demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesində yaxından iştirak etməlidir".***

**Faiq SƏFƏROV**
***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun şöbə rəisi, baş ədliyyə müşaviri***

---

## "Akkreditasiya meyarları" mövzusunda fikir mübadiləsi aparılıb



*"Naxçıvan" Universitetində keçirilən "Ali təhsil müəssisəsinin institusional akkreditasiya üzrə qiymətləndirmə meyarları" mövzusuna həsr olunmuş müzakirədə universitetin struktur rəhbərləri iştirak edib.*

Universitetin rektoru, dosent Anar Kazımov qardaş Türkiyədə zəlzələ nəticəsində baş vermiş faciəvi insan tələfatı və dağıntılara görə xalqımızın dərin kədər və sarsıntı içində olduğunu, eyni zamanda birlik və həmrəylik nümayiş etdirdiyini diqqətə çatdırıb. Bildirib ki, bu çətin günlərdə bütün qəlbimizlə türk xalqının yanındayıq. Zəlzələ qurbanlarının xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsindən sonra müzakirəyə başlanılıb.

Rektor müzakirə ilə bağlı aparılacaq fikir mübadiləsinin ali təhsil müəssisəsinin akkreditasiyası üçün olduqca böyük əhəmiyyət daşıdığını vurğulayıb. Qeyd edib ki, "Ali təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə qiymətləndirmə meyarları" Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Kollegiyasının 2022-ci il 30 sentyabr tarixli Qərarı ilə təsdiq edildikdən sonra Təhsildə Keyfiyyət Təminatı Agentliyi tərəfindən ali təhsil müəssisələrinin institusional akkreditasiya üzrə qrafiki təsdiqlənib. Qrafikə əsasən yaxın gələcəkdə "Naxçıvan" Universitetində də akkreditasiya qiymətləndirilməsinin aparılması nəzərdə tutulub.

Universitetin Keyfiyyət Təminatı Mərkəzinin müdiri Ruqiyyə Kərimova müzakirədə akkreditasiya meyarları – təhsil müəssisəsinin fəaliyyətinin və təhsil proqramlarının icrasının dövlət təhsil standartlarına uyğunluğunun qiymətləndirilməsi üzrə ölçülər, həmçinin akkreditasiya üçün tələb olunan özünütəhlil hesabatının hazırlanmasından söz açıb, meyarlar üzrə toplanması zəruri olan maksimum ballar, bu balların qiymətləndirilməsinin akkreditasiya prosesinə təsiri və digər məsələlər barədə iştirakçıları ətraflı məlumatlandırıb.

Fikir mübadiləsi iştirakçılarla sual-cavab sessiyası şəklində davam etdirilib.

***"Naxçıvan" Universitetinin mətbuat xidməti***

---

*"Erkən nikah ailə institutunun məhvidir" mövzusunda Ordubad rayonunda Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Ordubad Rayon İcra Hakimiyyəti tərəfindən tədbir keçirilmişdir.*

## Erkən nikahın fəsadları ilə bağlı maarifləndirici tədbir keçirilib



Tədbirdə Ordubad Rayon İcra Hakimiyyətinin əməkdaşı Əli Heydərov çıxış edərək xalqımıza məxsus zəngin ailə dəyərlərindən danışmışdır. Qeyd olunmuşdur ki, nikah yaşından az olan yeniyetmələrin ailə qurması özlərinin hər hansı bir şəxs tərəfindən buna təhrik edilməsi isə qadın və uşaq hüquqlarının kobud şəkildə pozulmasıdır. Erkən nikah ailə məsələlərində ciddi məqamlardan biridir, ailənin və ailə üzvlərinin taleyinə birbaşa təsir edir.

"Erkən nikah ailə institutunun məhvidir" mövzusunda Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin əməkdaşı Elşən Əsədov çıxışında nikah haqqında ətraflı məlumat verərək bildirmişdir ki, nikaha daxil olan gənclər ailə yaratmaqla təkcə bir-birləri qarşısında deyil, eyni zamanda valideynləri, yaxınları və ümumiyyətlə, cəmiyyət qarşısında məsuliyyət daşıyırlar. Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 10-cu maddəsində nikah yaşının 18 olduğu qeyd olunmuşdur. Bəzən elə hallar olur ki, gənclərimiz ailə anlayışını kifayət qədər dərk etmədən yaşlarının rəsmi nikah üçün müəyyən edilmiş yaş həddindən aşağı olmasına baxmayaraq, erkən yaşda ailə qurmağa meyilli olurlar. Belə hallar nikah hesab olunmur, şərti olaraq erkən nikah adlanır və sağlam mənəvi-fizioloji təməllər üzərində qurulmadığı üçün ailələrin dağılmasına səbəb olur.

"Erkən nikahın fəsadları" barədə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin əməkdaşı Elsun Cahangirli çıxış edərək vurğulamışdır ki, erkən nikah əsasında qurulan ailələrdə nikahın pozulması, məişət zorakılığı, sağlamlıq imkanları məhdud uşaqların dünyaya gəlməsi, fiziki-psixoloji çətinliklər, təhsildən məhrum edilmə və şəxsi azadlıqların itirilməsi kimi mənfi nəticələr qaçılmazdır.

Ordubad Rayon Polis şöbəsinin əməkdaşı Aqil Seyidov isə Azərbaycan Respublikasında qəbul olunmuş normativ-hüquqi aktların erkən nikah hallarının yaranmasına yol vermədiyini qeyd edərək diqqətə çatdırmışdır ki, erkən nikah hallarına yol vermiş şəxslərin məsuliyyətinin artırılması istiqamətində müvafiq tədbirlər görülməkdədir. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 176.1.1-ci maddəsində göstərilir: "Qadını nikaha daxil olmağa məcburetmə – iki min manatdan üç min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır". Bundan əlavə, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 176.1.2-ci maddəsində qeyd olunur: "Eyni əməllər nikah yaşına çatmayan şəxs barəsində törədildikdə – üç min manatdan dörd min manatadək miqdarda cərimə və ya dörd ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır".

Sonda tədbir iştirakçılarına "Erkən nikah ailə faciəsinin təməlidir" və "Uşaq hüquqları" mövzularında hazırlanmış broşürlər paylanılmışdır.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Naxçıvandan daha 12 TIR yardım Türkiyəyə göndərilib

*Xəbər verdiyimiz kimi, fevralın 6-da Türkiyədə baş vermiş güclü zəlzələlərdən zərərçəkmiş insanlara köməklik göstərilməsi məqsədilə ölkəmizin hər yerində olduğu kimi, muxtar respublikada da qardaş ölkə üçün dəstək aksiyası başlayıb. Fevralın 9-da daha 12 TIR yardım Türkiyəyə yola salınıb. Diplomatik nümayəndəliyin əməkdaşı Vüqar Əliyevdən aldığımız məlumata görə, göndərilən TIR-lardan birində Əlahiddə Ümumqoşun Ordu tərəfindən verilən 43 çadır dəsti, 2 minigenerator, eləcə də qızdırıcı, istilik ləvazimatları olub. Digər TIR-larda isə əsasən, qida, geyim, uşaq bezi, “Badamlı”, “Çınqıllı” suları, yataq, yorğan dəstləri, xalçalar yığılaraq göndərilib.*

***Türkiyə Respublikasının Naxçıvan Muxtar Respublikasındakı Baş konsulu Asip Kaya*** “Şərq qapısı” qəzetinə müsahibəsində yardım



göndərən hər kəsə təşəkkürünü bildirərək deyib: – Zəlzələ baş verdikdən dərhal sonra biz çox böyük fəlakət olduğu üçün beynəlxalq yardım çağırışı etdik. İlk köməyə yetişən ölkələrdən biri Azərbaycan oldu. Qardaş ölkə yardım çatdırma, xilasetmə dəstəsi göndərdi. Daha sonra ehtiyac duyulan ləvazimatları sosial media hesablarımızdan bildirdik. O andan bəri Naxçıvandakı Baş Konsulluğumuza inanılmaz yardım axını oldu. Bizim yardımları Baş Konsulluqda çeşidləyib göndərməyimiz çətin idi. Bu işdə Əlahiddə Ümumqoşun Ordu bizə köməklik etdi, ordunun anbarında bunun üçün şərait yaradıldı. Fevralın 8-də 12 TIR Naxçıvandan Türkiyənin Adıyaman bölgəsinə göndərildi. Bu gün də 12 TIR yola salındı. TIR-larda, əsasən, qida məhsulları, su, geyimlər, çadırlar vardır. Bundan sonra daha çox çadıra, istilik ləvazimatlarına, qış geyimlərə, dərmanlara, gigiyenik vasitələrə ehtiyac vardır. Yardım etmək istəyən naxçıvanlı qardaşlarımız bunlara önəm versələr məmnun olarıq. Gigiyenik baxımdan yeni paltarlar gətirsələr yaxşı olar. Paltarların çeşidlənib göndərilməsi olduqca çətindir. Mən Türkiyə Cümhuriyyəti, türk xalqı adından yardım edən hər kəsə təşəkkürümü bildirirəm. Böyük bir həmrəylik örnəyi göstərdilər.





Bildiyimiz kimi, biz bir millət, iki dövlətik. Bunu bir daha bütün dünyaya göstərdik. Onu da deyim ki, Əlahiddə Ümumqoşun Ordu köməklik etməsə idi, bizim üçün yardımları çeşidləyib yola salmaq çətin olardı. Bir daha əməyi keçən hər kəsə, o cümlədən də Əlahiddə Ümumqoşun Ordunun burada çalışan heyətinə dəstəklərinə görə təşəkkürümü bildirirəm.

✍ Nail ƏSGƏROV

## Qardaş ölkəyə xidmət naminə...

### “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyəti qardaş ölkəyə dəstək aksiyası keçirir




Artıq bir həftəyə yaxındır ki, ölkəmizin bir çox xəbər saytlarında, televiziya kanallarında, qəzetlərdə Türkiyə Respublikasındakı məlum təbii fəlakətin acı xəbərlərini eşidirik. Qardaş ölkənin zəlzələdən zərərçəkmiş ərazilərindəki mövcud vəziyyətin ağırlığı barədə də kifayət qədər ölkə ictimaiyyətinin, hətta dünya əhalisinin məlumatı var.

Muxtar respublikanın qədir-qiymət bilən insanları tərəfindən də bu zaman müddətində türk soydaşlarımıza geniş yardım aksiyaları təşkil olunub, qışlıq geyimlər, ayaqqabılar, müxtəlif növ çadırlar, quru yeməklər, qızdırıcı cihazlar və digər zəruri avadanlıqlar Türkiyə Respublikasının Naxçıvan Muxtar Respublikasındakı Baş Konsulluğuna ünvanlara çatdırılması üçün təhvil verilib. Sevindirici haldır ki, diyarımızın insanları ilə yanaşı, bir çox aidiyyəti qurum və təşkilatlar da öz yardım əllərini qardaş ölkəyə uzadıblar, bütün imkanlarla zərərçəkmiş türk soydaşlarımıza köməklik göstərirlər.

Məlumat üçün qeyd edək ki, “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyəti də qardaş ölkəyə köməklik məqsədilə addımlar atıb. Belə ki, cəmiyyətin rəhbərliyinin qərarına əsasən qardaş Türkiyə Respublikasında zəlzələdən zərərçəkənlərə yardım etmək məqsədilə “Naxçıvanbank”dan edilən bütün pul köçürmələri komissiyasız həyata keçirilir. Bu istiqamətdə maddi vəsait şəklində ianə etmək istəyən hər bir vətəndaş günün istənilən zamanında “Naxçıvanbank”ın filiallarına yaxınlaşa və öz yardımlarını köçürə bilərlər.

Məlumatı dəqiqləşdirmək üçün xidmətin əməkdaşları ilə həmsöhbət olduq. Bu barədə bizə ətraflı məlumatı “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyətinin əməkdaşı ***Aslan Səfərov*** verdi. Müsahibimiz diqqətə çatdırdı ki, Türkiyə Respublikasında baş verən təbii fəlakət bizi dərindən sarsıtdı. Qardaş ölkə çox çətin günlər yaşayır. Tarixin bütün dövrlərində olduğu kimi, çətin şəraitdə də Azərbaycan dili bir, dini bir, amalı bir soydaşlarından yardım əlini əsirgəmədi. Üç gündən artıqdır ki, istər ölkəmizin, istərsə də muxtar diyarımızın hər yerindən zəlzələdən zərərçəkmiş insanlara yardımlar göndərilməkdə davam edir.

Aslan Səfərov “Naxçıvanbank”ın ASC-nin sözügedən işi barədə məlumat verərək diqqətə çatdırdı ki, təyinatı üzrə həm fiziki, həm də hüquqi şəxslər “Naxçıvanbank”ın filiallarına yaxınlaşaraq Türkiyəyə maddi yardım köçürmələrini rahat, sürətli və komissiyasız şəkildə həyata keçirə bilirlər. Layihəyə qısa bir zaman müddətində başlasaq da, artıq müraciət sayları hər ötən saat artır və inanırıq ki, daha çox maddi vəsait toplanacaqdır. Bank xidməti vasitəsilə yardım göstərmənin bir digər üstünlüyü də ondan ibarətdir ki, bu yolla aksiyaya qoşulanların vəsaitləri, necə deyərlər, təhlükəsiz şəkildə, heç bir dələduzluq halları baş vermədən ünvana çatdırılır. Onu da qeyd edim ki, bu maddi yardım aksiyasının konkret müddəti yoxdur, yeni başladığı tarixdən üç, dörd, hətta beş il ərzində belə davam etdirilə bilər.

Müsahibimiz onu da diqqətə çatdırdı ki, “Naxçıvanbank” tərəfindən mövcud hesablara ianə məqsədli köçürmələrdən əlavə dəyər vergisi (ƏDV) tutulmur. Bundan başqa, Türkiyəyə dəstək məqsədli pul köçürmələrində xidmətə görə bank komissiyası məbləği və həmçinin köçürmələr zamanı konvertasiya haqqı da bank tərəfindən ödənilir. İstər hüquqi, istərsə də fiziki şəxslər “Naxçıvanbank”ın filiallarına yaxınlaşaraq, ianə köçürmələrini əlavə dəyər vergisi (ƏDV) tutulmadan, xidmət haqqı və konvertasiya komissiyaları ödəmədən, çox rahatlıqla həyata keçirə bilərlər.

✍ Məcid RƏŞADƏTOĞLU

## Muxtar respublikamızın səhiyyə ocaqları bütün tibbi personalı ilə zəlzələdən zərərçəkənlərə yardım etməyə hazırdır

Bir neçə gün əvvəl qardaş Türkiyə Respublikası tarixinin ən böyük təbii fəlakəti ilə üz-üzə gəldi. Qonşu ölkədə baş verən zəlzələnin nəticələri hamımızı dərindən sarsıtdı. Həmin gecədən bizim xalqımız da qardaş xalqla bərabər yaranan çətinliyin aradan qaldırılması üçün səy göstərməyə başladı. Dövlət başçısı cənab İlham Əliyevin və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın göstərişlərinə əsasən qardaş ölkəyə yüksək səviyyədə yardım edilir. Axtarış və xilasetmə qrupları, tibbi personal və səhra xəstəxanası ilə yanaşı, maddi yardım və xalqın dəstəyi ilə Azərbaycanın bütün bölgələrindən zəlzələ baş verən rayonlarda yaşayan insanlara isti geyim və lazımi əşyalar göndərilir. Bundan başqa, ölkə başçısı tərəfindən respublika ərazisində, o cümlədən Naxçıvan Muxtar Respublikasında yerləşən xəstəxanalara qardaş ölkədən gətiriləcək yaralıları qəbul etmək üçün hazır olmaq göstərişi verilib. Muxtar respublikamız qardaş ölkə ilə sərhəddə yerləşdiyi üçün ona ən yaxın olan iki rayon Sədərək və Şərur rayon mərkəzi xəstəxanaları, eləcə də Naxçıvan şəhərində və digər rayonlarımızda yerləşən xəstəxanalar tam hazır vəziyyətə gətirilib. Müasir tibbi avadanlıqlara və mütəxəssis həkim heyətinə malik olan xəstəxanalarımız qardaş ölkənin vətəndaşlarına hər cür tibbi yardım göstərməyə hazırdır. Biz də Naxçıvan şəhərində yerləşən tibb ocaqlarına gedib tibb işçiləri ilə həmsöhbət olduq.

Muxtar respublikanın ən böyük xəstəxanalarından biri olan Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkimi ***Zəbur Bağırov***la söhbətimizdə bildirdi ki, xəstəxana 600 nəfərlik personalı ilə tam hazır vəziyyətə gətirilib. Qardaş ölkədən gətiriləcək yaralılara hər cür tibbi yardım göstərməyə hazırlıq görülüb. Bütün şöbələr öz personalı ilə dost ölkədə baş verən təbii fəlakət nəticəsində sağlamlıqlarını itirənlərə əlindən gələni etməyə hazırdır. Artıq iki gündür ki, kollektiv yardım aksiyasına da qoşulub. Tibbi ləvazimatlar, maddi yardım, isti geyim və digər ləvazimatlar qardaş ölkəyə yola salınmaq üçün Baş Konsulluğa təhvil verilib. Bununla yanaşı, bütün həkim kollektivi tibbi yardım göstərmək məqsədilə Türkiyə Respublikasına getmək üçün müraciət edib. Onlar xəstələrin Naxçıvanda müalicəsinə hərtərəfli kömək etməklə yanaşı, qardaş ölkəyə də getməyə hazırdır. Səhiyyə işçilərimiz bunu peşə vəzifəsindən də çox qardaşlıq borcu hesab edir. Hər bir azərbaycanlı kimi bu müqəddəs peşə sahibləri də ölkə başçısının əmrini sadiq əsgər kimi gözləyirlər.



Xəstəxananın Qəbul şöbəsinin müdiri ***Ramidə Bağırova*** ilə söhbətimizdə dedi:

– Fevralın 6-da səhər saatlarında can qardaşımız Türkiyədə baş verən zəlzələnin fəsadları hamımızı dərindən sarsıtdı. Özümüzü onların yerində hiss etdik. Qardaş və bacılarımızın, körpələrin, qocaların dağıntılar altında qalması hamımızı dərindən sarsıtdı. Həm həkim, həm də ana kimi, əlimizdən gələndən də artığını etməyə hazırıq. Mən də digər həmkarlarım kimi Türkiyə Respublikasına göndərilmək üçün müraciət etmişəm. Ulu Tanrının və qardaşlığımızın köməyi ilə bu çətin günlərdən də dəyanətlə çıxacağımıza inanırıq.

Həkim ortoped-travmatoloq ***Həbib Hüseynov***la da həmsöhbət olduq. O dedi:

– Türkiyə dövləti ilə biz bir can kimiyik. Onların acısı bizim də acımızdır. Qardaşlarımıza kömək etmək borcumuzdur. Türkiyə Respublikasının müxtəlif səhiyyə ocaqlarında tibb təhsilimi təkmilləşdirdiyim üçün özümü, bir növ, o xalqa borclu hesab edirəm. Və bu gün qardaşlarımızla daha möhkəm birləşmək vaxtıdır. Hər birimiz əlimizdən gələni əsirgəməməliyik.

Digər səhiyyə ocağı – Naxçıvan Diaqnostika Müalicə Mərkəzinin baş direktor müavini, baş həkim əvəzi ***Mətanət Səfərova*** isə bunları söylədi:

– Bu gün hər kəsin – böyükdən-kiçiyə hamının ürəyi Türkiyə üçün döyünür. Onların bu şaxtalı, qarlı qış günlərində belə bir təbii fəlakətlə üz-üzə qalması hamımızı kədərə qərq etdi. Hər cür yardımı göstərmək üçün səfərbər olduq. Həmin gündən lazım olacaq tibbi yardım üçün xəstəxana hazır vəziyyətə gətirildi. Bundan əlavə, yardım aksiyası vasitəsilə kömək etdik. Lazım olarsa, həmin bölgəyə gedib yaralılara tibbi yardım göstərməyə də hazırıq. Həkimlər və tibb bacıları bunun üçün müraciət də ediblər. Xalq olaraq qardaşlığımız dəfələrlə sınağa çəkilib, hər dəfə də bu sınaqdan mərdliklə, üzüağ çıxmışıq. Tarix dəfələrlə Türkiyə və Azərbaycan dostluğunun, qardaşlığının möhkəmliyinə şahidlik edib. Babalarımızdan miras qalan bu dostluq və qardaşlıq bu gün də davam edir. Vətən müharibəsində qardaş ölkənin həkimləri ölkəmizə gəlib yaralıların yerində əməliyyat və müayinə etməklə yanaşı, bir çox ağır vəziyyətdə olan hərbçilərimiz Türkiyə Respublikasının ən yüksəkixtisaslı həkimlərinin köməyi ilə həmin ölkənin tibb ocaqlarında müalicə olunub həyata qayıdıb. Bu gün də bizim həmin həmrəyliyi göstərməyimizin vaxtıdır.



Xəstəxananın həkimlərindən ***Nail Mehbalıyev*** də fikirlərini bizimlə bölüşdü:

– Həmişə dahi rəhbərimizin “Bir millət, iki dövlət” kəlamına sadiq qalaraq ən çətin günlərdə qardaşlığımızı hər məqamda göstərdik. Maddi-mənəvi türk qardaşlarımızın yanındayıq. Onların dərdini öz dərdimiz hesab edir və zəlzələdən əziyyət çəkən insanlarımıza kömək etməyə can atırıq. Türkiyə Respublikası ilə bizi nə sərhədlər, nə də düşmənlər ayıra bilməyib, bilməyəcək də. Can qardaşlarımıza nə lazımdırsa, etmişik və bundan sonra da edəcəyik. Çünki bizi bir-birimizə qırılmaz tellər, qarşılıqsız kömək etmək duyğusu və sevgi bağlayır.

Tarix bu gün bu iki xalqın qardaşlığının sınağa çəkildiyi günlərdən daha birinə şahidlik edir. Və təkcə səhiyyə sahəsində deyil, bütün sahələrdə bu sınaqdan alnıaçıq çıxacağına əminik. Ötən gün dövlət başçısı qardaş ölkənin səfirliyində olarkən dedi: ***“Bilirsiniz ki, Azərbaycan hər zaman olduğu kimi, ilk dəqiqələrdən, ilk saatlardan qardaş Türkiyənin yanında idi və öz dəstəyimizi, öz həmrəyliyimizi həmişə olduğu kimi nümayiş etdirmişik. Əgər bu acı faciənin fəsadlarının aradan qaldırılmasına bir balaca kömək edə bilmişiksə, bunu özümüz üçün şərəf bilirik. Hər zaman Türkiyə də bizim yanımızdadır, yaxşı günlərdə, çətin günlərdə... O cümlədən bizim xəstəxanalarda yaralı qardaş-bacılarımızın müalicəsi üçün bütün şərait var. Həm Bakıda, digər şəhərlərdə, o cümlədən Naxçıvan Muxtar Respublikasında artıq çarpayılar ayrılıb və ehtiyac olarsa, biz xəstələri gətirməyə də hazırıq”.***

*Bəli, qardaşlıq dar gündə də, xoş gündə də, qarşılıq gözləmədən yaşanır. Qardaşlıq köməyə ehtiyac duyulduğunu hiss edən kimi, onun bizi yardıma çağırmağını gözləmədən təyyarələrin havaya qaldırılmağı, qarlı, şaxtalı havada baş verən zəlzələdə evsiz qalan insanların üşüməsinə imkan vermədən evindəki isti geyimini, yorğan-döşəyini onlara göndərməkdir. Qardaşlıq çörəyini, suyunu yarı bölmək, bir ocağın istisinə qızınmaqdır. Qardaşlıq bu iki xalqın arasındakı bağdır. Vətənpərvərlikdən, sevgidən yaranan qırılmaz bağ.*

✍ Ramiyyə ƏKBƏROVA

# Türkə ağı demək olmaz

**Türkə ağı demək olmaz,**
**Türk Tanrının törəsidir.**
**Quru daş da bilir ki, o,**
**Yer üzünün haqq səsidir.**

**Min illərin tarixini**
**Bir arayın varaq-varaq,**
**Görün, hansı sorununu**
**Türk həll edib ağlayaraq?!**

**Türk yaranan gündən bəri**
**Tanrı çəkir sınağına.**
**Qoca Türk baş əyərmi heç**
**Bir zəlzələ qınağına?!**

**Türkə ağı demək olmaz!**
**Lap ölüm ayağında da.**

**Türkə türkü oxuyublar**
**Ən dözülməz çağında da...**

**Haqdan gələn bəlanı da**
**Haqdan gələn sevgi bilib.**
**Onunçun də ulu Türküm**
**Haqq dərgahına yüksəlib.**

**Yaxşı bilir türk oğlu türk**
**Öz soyunun nişanəsin.**
**Qoy yazılsın yaddaşına**
**Qələm tutan hər bir kəsin:**

**– Türkə ağı demək olmaz!**
**Türk Tanrının törəsidir!**
**Qınına sığmayan qılınc ,**
**Ünlü döyüş nəğməsidir.**

**Xanəli KƏRİMLİ**

*Bir neçə gündür, yuxumuz ərşə çəkilib. Qışın oğlan çağında isti evlərimizdə ruhumuz donur. Bir rahat yerdə oturan kimi sanki tikan batır bədənimizə. Qardaşımız, candaşımız, sirdaşımız Türkiyənin bir çox vilayətində baş verən zəlzələ bizi də yerimizdən oynadıb. Belə zamanlarda necə rahat olasan ki?! Türkiyə və Azərbaycan heç vaxt "Məndən ötdü qardaşıma dəydi" arxayınlığına söykənən ölkələr olmayıb.*

## Hamılıqla maddi və mənəvi olaraq qardaş Türkiyəmizin yanındayıq

"Bir ananın iki oğlu", – deyən Bəxtiyar Vahabzadə tarixin dərinliklərindən söz açırdısa, ***"Bir millət, iki dövlət"***, – deyən Ulu Öndərimiz Heydər Əliyev bu günümüzü və əbədiyyən davam edəcək gələcək həmrəyliyimizi nişan verirdi. Hər iki fikri, gerçək mənada, yaşadığımız bu günlərdə atalarımızın "Dost dar gündə tanınar" müdrikliyini də müşahidə edirik. Fevralın 6-da günün ilk saatlarında Türkiyədə baş verən dəhşətli zəlzələdən dərhal sonra qardaş ölkəyə dövlət səviyyəsində kömək göstərən Azərbaycan belə çətin məqamda Türkiyəyə əl uzadan ilk ölkə olmağı təkcə bir statistika kimi yerinə yetirmədi. Bu həm də "qardaşımın topuğuna dəyən daş, mənim ürəyimi yaralayar" düşüncəsinin nümunəsi idi. Ölkə Prezidenti cənab İlham Əliyevin Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğana bununla bağlı kədərini ifadə etməsi, Türkiyənin Azərbaycandakı səfirliyində olub çoxsaylı insan təlafatı ilə bağlı başsağlığı verməsi başda ölkə rəhbəri olmaqla bütün Azərbaycanın qardaş Türkiyənin yanında olmasının göstəricisidir. Ölkənin hər bir bölgəsində bu soyuq qış günlərində zəlzələdə zərər görənlərə yardımların toplanması, yaralılara dərmanların göndərilməsi, dağıntılar altında qalanların xilas edilməsi üçün Fövqəladə Hallar Nazirliyinin əməkdaşlarının Türkiyəyə ezam edilməsi bu birlik və bərabər olmalı günlərdə qardaş borcudur.

Neçə gündür, doğma Naxçıvanımızda da hər kəs imkanı daxilində kömək etmək üçün evindəkiləri, əlindəkiləri qardaşlarına göndərməyə, yardımı ilə maddi və mənəvi dəstək olmağa tələsir. Bu mənzərələri izlədikcə kövrəlməmək üçün gərək ürəyin daş ola. Bir neçə qış geyimini qucaqlayıb Türkiyə Konsulluğuna tərəf gedən yaşlı qadının hüznlü çöhrəsini görəndə insanlığın böyüklüyü, ana hissinin əvəzolunmazlığı qarşısında baş əyməli olursan.

Təkcə bir anamı? – Yox! Ölkə olaraq, muxtar respublika olaraq hamı maddi, mənəvi türkiyəli qardaş-bacılarımıza kömək üçün özünü səfərbər edib. Sosial şəbəkələrdən də izləyirik. Məktəblərdə müəllim və şagirdlər, universitetlərdə tələbələr, kəndlərdəki insanlar, müxtəlif idarə və müəssisələrin əməkdaşları, könüllü vətəndaşlar hamı bu dəstəyin, köməyin, yardımın bir parçası olmaq üçün tələsir.

Naxçıvan Dövlət Universitetinin Hazırlıq şöbəsində dərs dediyim zəlzələ baş verən bölgələrdən olan onlarla tələbəm var. İlk andan onlarla əlaqə saxlayıram və bəziləri ilə hələ də danışa, yazışa bilməmişəm. Hamısı böyük qorxu, kədər, çaşqınlıq, çarəsizlik içindədi. Bizdən istədikləri, sadəcə, duadır. "Onsuz da azərbaycanlı qardaşlarımız ilk köməyə gələnlərdir", – deyirlər. İndi İrem Kargaoğlu, Mehmet Mahsum Can, Metehan Topçuoğlu, Ayşenur Çolak və digər tələbələrimin həyəcan dolu səslərini dinlədikcə, pərişan haldakı yazışmalarını oxuduqca ürəyim sızıldayır. Sözlərlə verilən təsəlli onları nə qədər ovundura bilər ki? Yenə də inanıram ki, dualarımızla, maddi və mənəvi dəstəyimizlə ən qısa zamanda bu çətin dönəmin öhdəsindən gələcəyik. Möhkəm olun, əziz tələbələrim, onların ailələri, canımız Türkiyəmiz və bacı-qardaşlarımız.

Xalq şairi Bəxtiyar Vahabzadənin illər əvvəl yenə Türkiyədə baş vermiş güclü zəlzələdən sonra yazdığı bir şeiri bu günlərdə yenidən xatırlamalı olursan:

*Eşidincə ata yurdda depremi,*
*Axdı yaşım, döndü başım,*
*Türkiyə.*
*Hər dərdi min, həm qəmimin ortağı,*
*Can qardaşım, qan qardaşım,*
*Türkiyə!*

İndi can qardaşımız, qan qardaşımız Türkiyəmizin yanında olduğumuzu hamılıqla göstərməyin zamanıdır. Necə ki 44 günlük müharibədə və ondan əvvəl və sonrakı dönəmdə Türkiyə can qardaşı, qan qardaşı Azərbaycanın yanında olmuşdu, indi də biz bu birliyi və bərabərliyi göstərməliyik və göstərəcəyik də.

**Elxan YURDOĞLU**
***filologiya üzrə fəlsəfə doktoru, dosent, şair-publisist***

*Son illər dünya təhsil sistemində özünə xüsusi yer tutan təhsil metodlarından biri də STEAM-dır. Təhsil sistemində bu metodun əsas üstünlüyü tədrisdə əməkdaşlıq, ünsiyyət, yaradıcılıq, informasiya və kommunikasiya bacarıqlarını inkişaf etdirməkdir. Naxçıvan Muxtar Respublikasında təhsilin bütün mərhələləri kimi, STEAM tədrisin də maddi-texniki bazası möhkəmləndirilib. Məhz bunun nəticəsində muxtar respublikada innovativ təhsil üsullarının tətbiqi istiqamətində "İnnovativ dərnəklər", "Sabahın tədqiqatçıları", "İnteraktiv dərs" kimi layihələr tətbiq edilir. Eyni zamanda STEAM metodu ilə bağlı xarici ədəbiyyatlar Azərbaycan dilinə tərcümə edilir, metodik vəsaitlər hazırlanıb məktəblərə paylanılır.*

*Gəncliyimiz, gələcəyimiz*

## STEAM istedadlı və intellektual potensiala malik gəncliyi üzə çıxarır



Son zamanlarda bu təhsil metodu üzrə muxtar respublikadakı ümumtəhsil məktəbləri şagirdlərinin qazandığı uğurlar ələlxüsus vurğulanmalıdır. Artıq bir çox beynəlxalq müsabiqələrdə mükafatlar qazanan yeniyetmələrimizə "Sabahın tədqiqatçıları" da deyə bilərik. Onlardan biri Naxçıvan şəhər Kimya-Biologiya Təmayüllü Liseyin 8-ci sinif şagirdi ***Hüseyn Tahirovdur***. İxtiraları ilə hamını təəccübləndirən gəncin ən uğurlu layihələri sırasında "Ağıllı aptek" layihəsi xüsusilə seçilir: "Son illər insanların daha çox ölümünə səbəb onların səhv dərmanlardan istifadə etməsidir. Bu layihə ilə problem tam aradan qaldırılacaq. "Ağıllı aptek"dən evdə, eləcə də əczaxanalarda istifadə etmək mümkündür. Belə ki, bu layihədə həm dərman haqqında məlumat verilir, həm də hansı dərmandan istifadə olunması lazım olduğu bildirilir. Bu mənim öz ideyamdır və heç bir yerdə yoxdur, iki həftəyə hazırlamışam. 3D printeri ilə çıxarılan bu layihə telefonla idarə olunur. Gələcəkdə isə telefondan istifadə edilməyəcək və elektrikə qoşulacaq".



Hüseyn Tahirov 2022-ci ildə STEAM Azərbaycan Festivalının (SAF) iştirakçısı olub: "Bu festivalda digər ölkələrin də nümayəndələri iştirak edirdi. Təqdim etdiyim layihə üzrə ikinci oldum. Bu layihə daha çox Fövqəladə Hallar Nazirliyi üçündür. Belə ki, robot baş verən qəza zamanı insan müdaxiləsi olmadan zərərçəkənləri xilas edir".

***Kamal Qafarov*** Naxçıvan şəhər 8 nömrəli tam orta məktəbin şagirdidir. O, eyni zamanda Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində robotexnika dərnəyinin üzvüdür: "İndiyədək 64 layihəm olub və ilk dəfə 2020-ci ildən başlayaraq STEAM Azərbaycan və beynəlxalq səviyyəli müsabiqələrdə iştirak etmişəm. SAF-2021-ci ildə ilk dəfə Azərbaycan üçüncüsü olmuşam. Eyni zamanda ölkə rəhbərləri və dünyanın bir çox tanınmış şəxslərinin iştirak etdiyi "Texnofest Azərbaycan"ın iştirakçısı olmuşam. Həmin müddətdə bütün qonaqlar layihəmizi bəyənib, onlar arasında Səlcuk Bayraktarın da olması sevindirici idi. Bizim layihəyə baxdı və bəyəndi. Bununla yanaşı, muxtar respublikada keçirilən bir çox müsabiqələrin qalibi və mükafatçısı olmuşam".



Kamal Qafarov kənd təsərrüfatında heyvanların yemlənməsi üçün də layihə hazırlayıb: "Bu layihə fermerlər və bu sahə ilə məşğul olan təsərrüfatçılar üçündür. Sistem üzərində yemlənmənin vaxtı qurulur və həmin vaxt müddətində yemlənmə gedir".

Naxçıvan Qarnizonu tam orta məktəbinin 8-ci sinif şagirdi ***Rauf Babayev*** isə SAF-2022-yə dron kateqoriyası üzrə qatılıb: "İlk dəfə qatıldığım müsabiqədə qalib olmaq gözəl və qürurverici hissdir. Dronda əvvəlcə onun fiqurlarını düzəltmişəm və unokartdan istifadə etmişəm. Gələcəkdə bunu daha da təkmilləşdirmək istəyirəm".



Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin sektor müdiri Murad Babayev bildirib ki, bu tədris metodu həyatımızın bir hissəsinə çevrilməklə təhsil sisteminə həm struktur, həm də güc dəyişikliyi gətirib: "Bildiyiniz kimi, dünyəvi təhsil sistemində bir çox innovativ layihələr təhsilin inkişafı istiqamətində aparılır. 2018-2019-cu tədris ilindən ölkə üzrə yeni təhsil metodu olan STEAM təhsil tətbiq olunmağa başlanılıb. Sevindirici haldır ki, bu təhsil metodu 2020-2021-ci tədris ilindən Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərində də tətbiq olunur. Təhsildə yeniliklər və yeni addım, yeni metod olan STEAM təhsilinin innovativ tətbiqi ilkin olaraq muxtar respublikanın 15 pilot məktəbində layihə olaraq yaradıldı. Yaradılan məktəblərdə şagirdlərin təhsil sistemində uğurlu nəticələrindən sonra digər məktəblərdə də STEAM kabinələri quruldu və bu gün muxtar respublikanın 113 ümumtəhsil məktəbində belə kabinə yaradılıb. Kabinələrin quraşdırılması üçün məktəblərdə böyük otaqlar seçilib və bunlar dövlətin qayğısı ilə xüsusi olaraq dizayn edilib, elektron lövhələr, təhsil üçün lazımi avadanlıqlar və kompüterlər alınıb. Dərslərin tədrisi üçün vəsaitlərə ehtiyac var idi və bunların əldə olunması üçün Təhsil Nazirliyi tərəfindən bir sıra xarici ədəbiyyatlar, kitablar tərcümə olunaraq çap edilib və 2000-ə yaxın tədris vəsaiti məktəblərə paylanılıb".

Kadr hazırlığından da söhbət açan Murad Babayev dedi: "Bu müddət ərzində kadr hazırlığı – müəllimlərin peşəkarlığı da diqqətdə saxlanılıb. Bu günədək Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, eyni zamanda beynəlxalq təlimçilər tərəfindən muxtar respublikanın 400-dən artıq müəlliminə STEAM təlimi keçirilib. Həmin müəllimlər isə Təhsil Nazirliyi tərəfindən sertifikata layiq görülüblər və bunun nəticəsində məktəblərdə STEAM təhsili aparmaq hüququ qazanıblar. 3 ilə yaxındır, muxtar respublikada tədris olunan STEAM şagirdlərin gələcəyinə doğru atılmış bir addım, təhsil metodudur. Bu gün şagirdlərimiz bu təhsil metodunda artıq uğurlu nəticələr əldə edirlər. Muxtar respublikada bir sıra robot layihələr, müsabiqələr keçirilir, şagirdlər uğurlu nəticələr qazanırlar. Sevindirici haldır ki, şagirdlərimiz ölkədaxili yarışlarda, müsabiqələrdə də böyük nailiyyətlər əldə edirlər. 2021 və 2022-ci illərdə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən keçirilən SAF layihələrində şagirdlərimiz iştirak edib, uğurlu nəticələr qazanıblar".

*STEAM təhsilin əhəmiyyəti nəzərə alınaraq bu gün muxtar respublikada STEAM Təlim-Tədris Mərkəzi də inşa edilib və avadanlıqlarla təmin olunub. Ümid edirik ki, bu istedadlı yeniyetmələr gələcəkdə ölkəmizin inkişafına töhfə verməklə yanaşı, həm də öz ixtiraları ilə Azərbaycan gəncinin nəyə qadir olduğunu bir daha nümayiş etdirmiş olacaqlar.*

**Ceyhun MƏMMƏDOV**

## Elan

Naxçıvan Muxtar Respublika Xəstəxanası dərman, sarğı materiallarının və tibbi ləvazimatların, ərzaq və təsərrüfat mallarının, tibbi avadanlıqların servis xidməti üçün tender sorğusu keçirilməsində iştirak etmək iddiasında olan bütün hüquqi və fiziki şəxsləri əməkdaşlığa dəvət edir. Tender və Kotirovka Komissiyasına aşağıdakı sənədlər təqdim olunmalıdır:

- *Maraq məktubu*
- *Malsatanın satdığı dərman, sarğı materialları və tibbi ləvazimatlar, ərzaq və təsərrüfat malları, tibbi avadanlıqların servis xidməti haqqında məlumat.*

Qeyd olunmuş sənədlər toplusunu 25 fevral 2023-cü il, saat $18^{00}$-a kimi Naxçıvan Muxtar Respublika Xəstəxanasına təqdim etmək lazımdır.

***Naxçıvan Muxtar Respublika Xəstəxanası***
***Əlaqə telefonu: (036) 545-69-82, 050-330-08-93***

***

Naxçıvan Su-Kanalizasiya İdarəsi mətbəə, nəqliyyat vasitələrinə ehtiyat hissələrin alınması, təmiri, membran filtrlərin, sutəmizləyici, digər kimyəvi məhsulların mal-materialın alınması və sair işlərin görülməsi üçün tender sorğusu keçirilməsində iştirak etmək iddiasında olan bütün hüquqi və fiziki şəxsləri əməkdaşlığa dəvət edir. Tender və Kotirovka Komissiyasına aşağıdakı sənədlər təqdim olunmalıdır:

- *Maraq məktubu*
- *Malsatanın satdığı mallar haqqında məlumat*
- *İş və xidmətlər haqqında məlumat*
- *Bank təminatı.*

Qeyd olunmuş sənədlər toplusunu 23 fevral 2023-cü il, saat $17^{00}$-a kimi Naxçıvan Su-Kanalizasiya İdarəsinə təqdim etmək lazımdır.

***Əlaqə telefonu: (036) 545-01-93***
***sukanalizasiya@gmail.com***

***

Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzi dərman, sarğı materiallarının və tibbi ləvazimatlarının, ərzaq məhsulları, dəftərxana ləvazimatı və təsərrüfat mallarının, tibbi avadanlıqların servis xidməti üçün tender sorğusu keçirilməsində iştirak etmək iddiasında olan bütün hüquqi və fiziki şəxsləri əməkdaşlığa dəvət edir. Tender və Kotirovka Komissiyasına aşağıdakı sənədlər təqdim olunmalıdır:

- *Maraq məktubu*
- *Malsatanın satdığı dərman, sarğı materialları və tibbi ləvazimatlar, ərzaq, dəftərxana ləvazimatları və təsərrüfat malları, tibbi avadanlıqların servis xidməti haqqında məlumat.*

Qeyd olunmuş sənədlər toplusunu 15 fevral 2023-cü il, saat $18^{00}$-a kimi Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzinə təqdim etmək lazımdır.

***Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzi***
***Əlaqə telefonu: (036) 545-96-21***

***

Naxçıvan Dövlət Texniki Kolleci təsərrüfat və dəftərxana ləvazimatlarının, yumşaq inventarların sorğusu keçirilməsində iştirak etmək iddiasında olan bütün hüquqi və fiziki şəxsləri əməkdaşlığa dəvət edir. Tender və Kotirovka Komissiyasına aşağıdakı sənədlər təqdim olunmalıdır:

- *Maraq məktubu*
- *Malsatanın təsərrüfat və dəftərxana ləvazimatlarının, yumşaq inventarları haqqında məlumat.*

Qeyd olunmuş sənədlər toplusunu 20 fevral 2023-cü il, saat $18^{00}$-a kimi Naxçıvan Dövlət Texniki Kollecinə təqdim olunması xahiş olunur.

***Naxçıvan Dövlət Texniki Kolleci***
***Əlaqə telefonu: (036) 545-31-54, 050-628-92-51***

### İtmişdir

Həsənov Samir Həsən oğlunun adına verilmiş Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Şahbuz şəhərində yaşamış Quliyev İsfəndiyar Mikayıl oğlunun adına verilmiş 230 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Culfa rayonu Bənəniyar kənd sakini Quliyeva Esmira Bəxtiyar qızının adına verilmiş JN-116$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babayev Əhməd Fizuli oğlunun adına olan 75 BC 013 nömrəli avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Hacıyev Elsevər Xəzər oğlunun adına Naxçıvan Regional Peşə Tədris Mərkəzi tərəfindən 16 noyabr 2018-ci ildə verilmiş ASN-005852 seriya nömrəli qazanxana-maşinisti sertifikatı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 111